

# Rüstəm İBRAHİMBƏYOV

Azərbaycan ədəbiyyatına və incəsənətinə ağır itki üz vermişdir. Görkəmli nasir, dramaturq, ssenarist, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı, SSRİ, Azərbaycan və Rusiya Dövlət mükafatları laureatı Rüstəm İbrahimbəyov dünyasını dəyişmişdir.

Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov 5 fevral 1939-cu ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Doğma şəhərində orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun istehsal proseslərinin avtomatlaşdırılması fakültəsində təhsil almışdır. Ali məktəbi bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda işləmiş, daha sonra Moskvada SSRİ Texniki Kibernetika İnstitunun aspiranturasına daxil olmuşdur.

1962-ci ildə ilk mətbu yazısı "Mürəbbəsiz çörək" adlı hekayəsi "Molodyoj Azerbaydjana" qəzetində işıq üzü gördükdən sonra ədəbi ictimaiyyətin diqqətini cəlb etmiş və bu sahədə biliyini artırmaq məqsədilə 1965-1967-ci illərdə SSRİ Kinematoqrafçılar İttifaqı yanında iki illik ali ssenari kursunda oxumuşdur. Onun diplom işi kimi ssenarisini yazdığı "Bir cənub şəhərində" filmi böyük uğurla ekranlara yol tapmışdır. Bundan sonra görkəmli yazıçının ssenariləri əsasında qırxdan çox bədii və televiziya filmi çəkilmişdir. Onların sırasında "Səhranın bəyaz günəşi", "Qum üzərində ev", "Ad günü", "İstintaq" filmləri xüsusi yer tutur. Həmin ssenarilərə görə o, Ümumittifaq Lenin komsomolu mükafatına, VII Ümumittifaq televiziya festivalının laureatı adına, Respublika Dövlət mükafatına layiq görülmüşdür. Kinematoqrafiya sahəsindəki yaradıcılıq uğurlarına görə Venesiya Kinofestivalının (1993) və Avropa Kinofestivalının baş mükafatlarını almışdır. Bu mükafatlar sırasında "Qran-Pri" və "Oskar" mükafatları da var.

Rüstəm İbrahimbəyov dünyanın müxtəlif şəhərlərində uğurla tamaşaya qoyulan onlarla pyesin müəllifidir. Onun "Yaşıl qapı arxasında", "Şirə bənzər", "Qum üzərində ev", "Kaliforniyada dəfn" və s. pyesləri MDB məkanı ilə yanaşı ABŞ-in, Bolqarıstanın, Polşanın, Almaniyanın və s. ölkələrin teatrlarında uğurla tamaşaya qoyulmuşdur. Yazıçının nəsr və dram əsərləri dünyanın, nüfuzlu nəşriyyatlarında işıq üzü görmüşdür.

Rüstəm İbrahimbəyov Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin katibi, birinci katibi, sədri vəzifələrində çalışmışdır. O, Müstəqil Dövlətlər Birliyi və Baltikyanı Kinematoqrafçılar İttifaqının sədri idi. Görkəmli sənətkar Bakıda fəaliyyət göstərən "İbrus" teatrının banisidir və ömrünün sonuna kimi bu səhnə ocağının bədii rəhbəri olmuşdur.

Rüstəm İbrahimbəyov Azərbaycanın, SSRİ-in, Rusiyanın və bir çox ölkələrin onlarla orden və medalları ilə təltif olunmuşdur. Senatın Antitürk mövqeyi tutduğuna görə o, Fransanın İncəsənət və Ədəbiyyat Ordenindən imtina etmiş, "Azərbaycan-Fransa" Mədəni Əlaqələr Cəmiyyətinin sədrliyindən istefa vermişdir.

Görkəmli nasir, dramaturq, ssenarist, ictimai xadim Rüstəm İbrahimbəyovun əsərləri və xatirəsi oxucularının və tamaşaçılarının qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**